# Müasir çağırışların Xankəndidən səsləndirilməsi Azərbaycanın gücündən xəbər verir

*III Şuşa Qlobal Media Forumu təkcə Azərbaycan mediası üçün deyil, siyasi diplomatiyamız üçün də ciddi hadisə kimi tarixə düşdü. Bu Forum həm Azərbaycan Prezidentinin yerli və qlobal media nümayəndələrinin suallarını cavablandırması, həm ölkəmizin imkanlarının nümayişi, həm də rəsmi Bakının dünyada cərəyan edən proseslərə yanaşması və ölkəmizin gələcək planlarının təqdimatı idi. Azərbaycan Prezidenti İlham Əliyevin dünyada gedən siyasi proseslərlə bağlı fikirləri beynəlxalq medianın diqqət mərkəzində oldu.*



**Tahir MİRKİŞİLİ,**
**Milli Məclisin deputatı.**

Forumda 52 ölkədən 140-a yaxın xarici nümayəndə iştirak etdi. Onların arasında 30-dan artıq informasiya agentliyinin, 7 beynəlxalq təşkilatın, 80-ə yaxın media qurumunun, həmçinin bu sahə üzrə fəaliyyət göstərən digər qurumların təmsilçiləri yer alırdı. Prezidentin çıxışında Azərbaycanın COP29-a ev sahibliyi etməsi, Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması, Bakı ilə İrəvan arasında normallaşma prosesi, Zəngəzur dəhlizi Azərbaycan-ABŞ, Azərbaycan-Rusiya, Azərbaycan-Avropa İttifaqı münasibətləri, həmçinin ölkəmizin iqtisadi potensialı ilə bağlı fikirləri böyük maraq doğurdu. Dövlətimizin başçısı regionun yeni geosiyasi reallıqlarını mükəmməl şəkildə təsvir etdi və eyni zamanda, problemlərin həlli üçün yol xəritəsini göstərdi. Regionda sülh və təhlükəsizliyin təmin olunmasının Ermənistandan, daha dəqiq desək, rəsmi Bakının şərtlərinin yerinə yetirilməsindən asılı olduğunu diqqətə çatdıran Prezident bununla tərəflərin sülhə yaxınlığı ilə bağlı nikbin mesajlar verdi.

Bütün dünyada bu fakt qəbul edilir ki, Ermənistan mövcud reallığı düzgün dəyərləndirməli və qərar verməlidir. Zəngəzur dəhliz ilə bağlı suala cavabında Azərbaycan Prezidenti bir daha əmin etdi ki, bu, sülh və əməkdaşlıq dəhlizidir. Dağıdıcı qüvvələrin bu layihə üzərindən regionda gərginlik yaratmaq səyləri baş tutmayacaq. Rəsmi İrəvan anlamalıdır ki, Zəngəzur dəhlizi regionun təhlükəsizliyində mühüm rol oynayacaq. Azərbaycanın işğaldan azad olunan ərazilərdə həyata keçirdiyi bərpa-quruculuq Forum vasitəsilə dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Prezident İlham Əliyevin müdrik siyasətçi kimi hazırda müharibə vəziyyətində olan Ukrayna xalqına verdiyi məsləhət aparıcı media orqanlarında geniş işıqlandırıldı. Ukraynanın "Gordon" media qurumunun təsisçisi jurnalist Dmitro Qordonun "siz Ukraynaya və ukraynalılara hansı tövsiyələri verə bilərsiniz" sualına cavab verən Prezident İlham Əliyev bildirdi ki, bir neçə il əvvəl tədbirlərin birində Ukrayna nümayəndəsinin oxşar sualına cavab vermək imkanı olub: "İndi verdiyim cavab ozamankı cavabımdan fərqli olmayacaq və düşünürəm ki, bu, Ukrayna xalqının istəkləri ilə də səsləşir - heç vaxt işğalla barışmamaq. Bu, əsas tövsiyədir. Bizim etdiyimiz də bu idi". Hesab edirəm ki, bu cür açıq mövqe ortaya qoymaq hər bir ölkənin liderindən böyük təcrübə, savad və cəsarət tələb edir. Əslində bu, Azərbaycan Prezidentinin hansısa ölkəyə qarşı mövqeyi kimi deyil, işğal faktoruna olan münasibətidir.

Azərbaycanın iqtisadi göstəricilərini Forum iştirakçılarının diqqətinə çatdıran ölkə rəhbəri qeyd etdi ki, xarici borcun ÜDM-dəki payının cəmi 6.9 faiz olması, yoxsulluğun aşağı səviyyəsi və Qarabağda həyata keçirilən iri infrastruktur layihələri ölkənin strateji və davamlı inkişaf modelinin göstəriciləridir. Bu sabitlik Azərbaycanın beynəlxalq maliyyə institutları və təşkilatlarla əlaqələrini gücləndirir, ona diplomatik manevr imkanları verir. Həmçinin Cənub Qaz Dəhlizi və Zəngəzur dəhlizi kimi təşəbbüslər Azərbaycanın regional enerji və logistik təchizat mərkəzi mövqeyini gücləndirir. Bu layihələr həm Avropa enerji təhlükəsizliyinə töhfə verir, həm də Cənubi Qafqazda iqtisadi inteqrasiyanı stimullaşdırır.

Müasir informasiya mühitində dezinformasiya qlobal stabilliyə, ölkələrarası münasibətlərə, sülhə əsas təhdidlərdən biridir. Real müharibələrdən fərqli olaraq informasiya savaşında heç zaman atəşkəs olmur. Düşünürəm ki, yeni dövrün çağırışlarının məhz Xankəndidən səsləndirilməsi Azərbaycanın gücündən xəbər verir. III Şuşa Qlobal Media Forumu proaktiv strategiyaların araşdırılması, qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması və gücləndirilməsi baxımından uğurlu oldu. Forum iştirakçıları Xankəndi, Şuşa və digər bölgələrimizdə aparılan yenidənqurma işlərini, Qarabağın və Şərqi Zəngəzurun dəyişən simasını şəxsən görmək imkanı əldə etdilər. ■

Respublika.- 2025.- 23 iyul (№ 150).- S.5.